Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakıdan İrəvana verilən sonuncu şans - Zəngəzur dəhlizi və... ölkənin xilası...

**Postmüharibə dövründə Azərbaycan üçün əsas vacib məqamlardan biri də regionda qarşılıqlı münasibətlərin inkişafı və bunun davamlı sülhün bərqərar olmasına öz töhfəsini verməsidir. Azərbaycan ən yüksək səviyyədə bəyan edir ki, tarixin ziddiyyətlər səhifəsini çevirib, regionda əməkdaşlıq qurulması mərhələsinin başlamasına hazırdır.**

Bu mənada Bakı indi İrəvanın da analoji addımlar atıb qarşılıqlı əlaqələrin qurulmasına daha çox diqqət yetirilməsini istəyir.

**Region ölkələri Azərbaycanın yanaşmasını təqdir edir**

Sözsüz ki, Azərbaycanın yanaşması Qarabağ münaqişəsinin fəsadlarının aradan qalxması, Ermənistanın gələcəyi baxımından böyük önəmə malikdir. Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan əməkdaşlıq məsələsində maraqlıdır və belaruslu həmkarı Aleksandr Lukaşenko ilə mətbuata bəyanatla çıxış edərkən bu xüsusda Prezident İlham Əliyev mühüm fikirlər səsləndirdi: "Ermənistanın başına gələnlərin təqsirkarı məhz 20 il ərzində ölkəni uçuruma aparan Ermənistan rəhbərliyidir. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun alçaldıcı məğlubiyyəti və tamamilə darmadağın edilməsi ilə başa çatıb. Bunun əsas təqsirkarları Ermənistanda bundan əvvəl hakimiyyətdə olanlardır. Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmlənməsinə və bu gün həm Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupu çərçivəsində, həm də qonşu ölkələr - Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik".

Bu açıqlamalr bir daha Azərbaycanı indi daha çox əməkdaşlıq məsələlərinin maraqlandırdığını qabarıq şəkildə nümayiş etdirir. Ekspertlər də qeyd edir ki, Qarabağ münaqişəsi bitdikdən sonra bölgədə yaranmış yeni geosiyasi və iqtisadi reallıq regional əməkdaşlığın yeni fazaya keçməsini şərtləndirir. Elə bu fonda Azərbaycan Zəngəzur dəhlizini reallaşdırmaq üçün regional səylərin birləşdirilməsinə çalışır. Dəhlizin yaradılması prosesində İrəvan da fəal iştirak etməlidir. Ən azı o baxımdan ki, Zəngəzur dəhlizi vasitəsilə Ermənistanın Rusiya ilə quru əlaqəsi yaranacaq və bu, Azərbaycan üzərindən keçən dəmir yolu vasitəsilə reallaşacaq. Eyni zamanda, Ermənistanın qonşusu İranla dəmir yolu əlaqəsi yaranacaq. Xatırladaq ki, İran da Zəngəzur dəhlizinin reallaşmasında maraqlıdır, çünki sanksiyalar altında qalan bir ölkə yeni regional əməkdaşlıq platformasından özünə pay götürmək istəyir. Burada qeyd edək ki, hələ bir neçə il öncə Ermənistandan İrana dəmir yolunu inşa etmək üçün bir qeyri-real plan var idi. ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" konfransında çıxışında buna toxunan Prezident İlham Əliyev bildirib: "Onlar hesablamalar aparıb bunun 3 milyard dollara başa gələcəyini anladılar. Yaxşı layihədir, lakin onun pulunu kim ödəyəcək? Bu, sualdır. Beləliklə, onlar bu layihədən artıq vaz keçdilər". İndi bu fonda İran üçün Zəngəzur dəhlizinin reallaşması mühüm önəm kəsb edir.

Burada onu da xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyanın son Rusiya səfəri fonunda Moskvanın Qafqazda kommunikasiya xətlərinin mümkün qədər tez işə düşməsində xüsusi maraqlı tərəflərdən biri olması növbəti dəfə öz təsdiqini tapdı. Rusiya prezidenti Vladimir Putin bölgədə kommunikasiyalar üzərindən blokadanın götürülməsinin vacibliyini qeyd edərək, bunun Ermənistanın inkişafı üçün də mühüm əhəmiyyət daşıdığını bəyan etdi. Beləliklə, Azərbaycan, Türkiyə, Rusiya, İran postmüharibə dövrünün regional əməkdaşlığı məsələsində eyni mövqeni nümayiş etdirir. Cənubi Qafqazda yaranan geniş əməkdaşlıq formatında iştirakı regionun digər ölkəsi olan Gürcüstana da ciddi dividend gətirəcək. Bütün bunlar fonunda Ermənistanın da Zəngəzur dəhlizinin reallaşmasına hansısa müqaviməti mümkün hesab edilmir.

**Azərbaycan Minsk Qrupunu kənarda saxlamır, amma...**

Bu gün Azərbaycan regionda qarşılıqlı etimad mühitinin yaradılmasında ATƏT-in Minsk Qrupunun da müvafiq rol oynaya biləcəyini istisna etmir. Bakı bu xüsusda Minsk Qrupundan konkret təkliflər gözlədiyini də açıq bildirir. Azərbaycanın yanaşması bundan ibarətdir ki, Minsk Qrupunun postmünaqişə vəziyyətində rol oynaya biləcəyi konkret sahələr ola bilər. Bura, ilk növbədə Azərbaycan, Rusiya, Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar bəyanatlarında təsbit edilmiş məsələlərin icrası aid edilə bilər. Bu kontekstdə əsas diqqət həm də Azərbaycan və Ermənistan arasında sərhədlərin demarkasiyası, delimitasiyası, qarşılıqlı etimadın, əməkdaşlıq münasibətlərinin yaradılması, bu ölkələrin regional, xüsusən kommunikasiya layihələrində birgə iştirakının təmin edilməsinə yönəldilməlidir. Azərbaycan Minsk Qrupunun münaqişədən sonrakı dövrdə göstərilən istiqamətlərdə fəaliyyətində maraqlıdır və qrupdan bu xüsusda konkret təkliflər gözlədiyini ən yüksək səviyyədə bəyan edir.

ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda Türkiyənin İstanbul Altınbaş Universitetinin rektoru Çağrı Arhanın sualını cavablandırarkən Prezident İlham Əliyev bununla bağlı konkret mövqe ifadə edib: "Onlar bu 29 il ərzində çox kreativ olublar. Bir az da kreativlik göstərsinlər. Lakin hesab edirəm ki, ciddi danışsaq, onların postmünaqişə vəziyyətində öz rolunu oynaya biləcəyi bəzi sahələr ola bilər. Münaqişəni həll etməli olan bir qrup olaraq yox. Burada mən Minsk Qrupunun bəzi nümayəndələri ilə tamamilə razı deyiləm. Onlar münaqişənin həll edilməli olduğunu deyirlər. Münaqişə artıq həll olunub. Əgər mən münaqişənin həll edildiyini deyirəmsə, bu onun həll olunduğu deməkdir. Beləliklə, onların özlərinin nəsə düşünmələrini, kreativ olmalarını, dəstək verməli olduqlarını hesab edirəm. Bu kövrək sülhə zərbə vura biləcək bir şey etməməlidirlər. Ermənistana qeyri-real vədlər verməməlidirlər, neytral, qərəzsiz olub, bu vəziyyəti bağlamağa çalışmalıdırlar. Ermənistanla gələcək sülh razılaşması haqqında danışanda, yəni əgər Ermənistan belə bir variantı nəzərdən keçirərsə, bu halda beynəlxalq tərəflər üçün çoxlu imkanlar ola bilər. Demarkasiya, delimitasiya, qarşılıqlı əlaqə məsələləri var". Minsk Qrupunun həmsədrlərinin aprelin 13-də yaydığı bəyanat onların Azərbaycan və Ermənistan arasında postmüharibə dövründə qalan problemli məsələlərin həlli və davamlı sülhə kömək edən qarşılıqlı etimad mühitinin yaradılmasında maraqlı tərəf qismində çıxış etmək niyyətlərinin göstəricisi kimi qəbul edilə bilər. Azərbaycan üçün maraq doğuran məsələ Minsk Qrupunun həmsədrlərinin sözdən əmələ keçməsi, yeni reallığa uyğun konkret təkliflərlə çıxış etmələridir. Postmüharibə dövrünün reallıqlarına uyğun şəkildə fəaliyyətlərinin davamı üçün Minsk Qrupunun həmsədr ölkələrinin proseslərə ədalətli və beynəlxalq hüquq çərçivəsində yanaşması da zəruri şərtdir. Qarabağ münaqişəsinin sona çatmasına rəğmən, rəsmi Bakının Minsk Qrupunun fəaliyyətindən imtina etməməsinin əsas səbəbi həmsədrlərin regionda davamlı sülhün bərqərar olmasına öz töhfələrini verə biləcəklərinə olan inamdır. Bu inamı doğrultmaq Minsk Qrupunun öz əlindədir.

**Azərbaycan istədiyinə nail olacaq**

Ekspetlər hesab edir ki, müvafiq beynəlxalq təzyiqlər də olacağı halda Ermənistan özü də Azərbaycanla sülhə xidmət edən əməkdaşlığın qurulmasında maraqlı olacaq. Amma burada ən əsas məqamlardan biri də odur ki, Ermənistan Azərbaycana verilmiş bütün vədlərə sadiq qalsın. Əks yanaşmanın Ermənistan üçün hansı fəlakətlərə gətirib çıxaracağı 44 günlük Vətən müharibəsinin timsalında özünü tam aydın şəkildə büruzə verdi.

Ermənistanın "Qraparak" nəşri də yazır ki, İrəvanın Bakı ilə oyun oynaması artıq mümkünsüz hala gəlib: "Bunun sübutlarını göstərən faktlar yetərincədir. Məsələn, Nikol Paşinyan İlham Əliyevə verdiyi vədləri yerinə yetirmədiyi üçün Bakı saxladığı erməni "əsir"ləri qaytarmır. Ortada iki məsələ var. Birincisi, erməni qoşunlarının Qarabağ ərazisindən çıxarılmasıdır. Bu məsələ artıq həll olunmaqdadır, ona görə tələb kimi əhəmiyyətini itirib. İkinci məsələ Tavuşla bağlıdır (Qazaxın 7 kəndi). Bizə bilgi ötürən mənbənin məlumatına görə, kəndlərin qaytarılması ilə bağlı şifahi razılaşma 11 yanvar Moskva görüşündə əldə olunub. Paşinyan isə seçki ərəfəsində bunu etmək istəmir". Nəşr qeyd edir ki, Azərbaycana verilən vədlər yerinə yetirilməsə, İrəvan yenə çətin duruma düşəcək. O da bildirilir ki, Qazaxın 7 kəndi ilə bağlı vədlərin icrası Zəngəzur dəhlizinin işə düşməsinin tezləşməsində də mühüm rol oynayacaq. Zəngəzur dəhlizinin istifadəyə verilməsi Ermənistanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində iştirakına zəmin yarada bilər. "Qraparak" yazır ki, bu, Ermənistan üçün yeni fürsətlər olacağından İrəvan bunu əldən qaçırmaq istəmir: "Bu səbəbdən Azərbaycanın istəyinə nail olacağını, Zəngəzur üzərindən Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcəyini demək olar".

Bütün bunlar bir daha postmüharibə dövründə proseslərin, əslində, Azərbaycanın istədiyi çərçivədə cərəyan etdiyini nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**